## 2011-ci ilin xronikası

**25-27 yanvar** tarixlərində Ümumdünya Gömrük Təşkilatının Brüssel şəhərində yerləşən Baş qərargahında keçirilmiş kinoloji itlərə, kinoloqların hazırlanmasına və kinoloji mərkəzlərə həsr edilmiş Qlobal Forumda Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin nümayəndə heyəti də iştirak etmişdir. Forumda Dövlət Gömrük Komitəsinin Kinoloji Mərkəzinin fəaliyyətinə dair təqdim olunan stend maraqla qarşılanmış, ÜGT-nin Baş katibi K. Mikuriya həmin stendə baş çəkmiş və Gömrük xidmətinin bir sıra ölkələrin gömrük orqanlarının kinoloji xidmətlərilə peşəkar əməkdaşlığını yüksək qiymətləndirmişdir.

**1 fevral** tarixində Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-leytenantı Aydın Əliyev Niderland Krallığının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Arjen Peter Uijterlindeni qəbul etmişdir. Aydın Əliyev Gömrük ilə Niderland Krallığı arasında mövcud iqtisadi, siyasi, mədəni əlaqələrdən söhbət açmış, bu əlaqələrin bundan sonra daha da genişlənəcəyinə əminliyini ifadə etmişdir. Səfir Arjen Peter Uijterlinde respublikamızda diplomatik fəaliyyət göstərməsindən məmnunluğunu vurğulamış, Niderland Krallığı ilə Azərbaycanın gömrük orqanları arasında mövcud və perspektiv əməkdaşlıq əlaqələrindən bəhs etmişdir.

**2-3 fevral** tarixlərində Fransanın paytaxtı Parisdə "Əqli Mülkiyyət Hüquqlarına Hörmətlə Yanaşma – Qlobal Problemin Davamlı Həlli Yolları" mövzusunda Kontrafakt Mallar və Piratçılığa Qarşı Mübarizəyə dair 6-cı Qlobal Konqres keçirilmişdir. Tədbirdə Dövlət Gömrük Komitəsinin sədrinin müavini, gömrük xidməti general-leytenantı Əsgər Abdullayev iştirak etmişdir. Fransa Prezidentinin xüsusi himayəsilə keçirilən konqresə Ümumdünya Gömrük Təşkilatı, Ümumdünya Əqli Mülkiyyət Təşkilatı, İNTERPOL, Fransa Milli Sənaye Mülkiyyəti İnstitutu, Beynəlxalq Ticarət Markası Assosiasiyası, Beynəlxalq Ticarət Palatası kimi beynəlxalq təşkilatların, istehlakçı qrupların, hüquq assosiasiyalarının və müxtəlif ölkələrin hüquq-mühafizə orqanlarının yüksək vəzifəli şəxsləri qatılmışdır.

**14 fevral** tarixində Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-leytenantı Aydın Əliyev "BP-Gömrük" şirkətinin prezidenti Rəşid Cavanşirin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir. Aydın Əliyev əfsanədən reallığa çevrilən Bakı-Tbilisi-Ceyhan neft, eləcə də Bakı-Tbilisi-Ərzurum qaz kəmərlərini istismara verilməsini məmnunluqla xatırlamış, ümumiyyətlə, respublikamızda neft sektorunun inkişafı naminə BP şirkətinin gördüyü işləri yüksək qiymətləndirmişdir. Səmimi qəbula görə Dövlət Gömrük Komitəsinin sədri Aydın Əliyevə təşəkkür edən Rəşid Cavanşir şirkətin həyata keçirdiyi irimiqyaslı layihələrin icrasında gömrük orqanlarının müstəsna rolundan danışmış, gömrük sistemi ilə əməkdaşlığın yüksək səviyyədə olduğunu, uzun illərdən bəri mövcud olan bu işgüzar əlaqələrin gələcəkdə daha da genişlənəcəyinə əminliyini ifadə etmişdir. Görüşün sonunda Gömrük Dövlət Gömrük Komitəsi ilə "bp-Gömrük" şirkəti arasında "Xəzər dənizinin Gömrük sektorunda Azəri, Çıraq və Günəşli yataqlarının dərinlikdə yerləşən hissəsinin birgə işlənməsi və neft hasilatının pay bölgüsü haqqında", "Xəzər dənizinin Gömrük sektorunda Şahdəniz perspektiv sahəsinin

kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsü haqqında", "Azərbaycan Respublikası Hökuməti və Əsas İxrac Boru Kəməri (ƏİBK) iştirakçıları arasında Tranzit əraziyə malik ölkənin hökuməti ilə" və "Azərbaycan Respublikası Hökuməti və Cənubi Qafqaz Boru Kəməri (CQBK) iştirakçıları arasında Tranzit əraziyə malik ölkənin hökuməti ilə" sazişlər əsasında hazırlanmış "İdxal və ixrac rüsumları və vergilər haqqında" protokollar imzalanmışdır.

**15-18 fevral** tarixlərində Ümumdünya Gömrük Təşkilatının Bakıdakı Regional Tədris Mərkəzində "Cənubi Qafqaz ölkələrində inteqrə edilmiş sərhəd idarəçiliyi sistemlərinə dəstək" layihəsi üzrə risklərin təhlili və idarəçiliyinə dair seminar keçirilmişdir. Azərbaycan Respublikası hökumətinin iştirakı ilə Avropa Birliyi və BMT İnkişaf Proqramı tərəfindən təşkil edilmiş tədbirə Azərbaycanın Dövlət Gömrük Komitəsi, Dövlət Sərhəd və Miqrasiya xidmətləri, eləcə də Gürcüstanın Sərhəd Polisi, Patrul Polisi və Maliyyə Xidmətinin məsul əməkdaşları qatılmışdır. Seminarda Gömrük Xidməti sərhədlərdə nəzarət prosedurlarının daha da təkmilləşdirilməsində maraqlı olduğu və bu sahədə qabaqcıl təcrübələrin öyrənilməsinə və tətbiqinə diqqətlə yanaşdığı vurğulanmış, iştirakçılara risk təhlili haqqında ümumi məlumat verilmiş, bu sahədə praktiki nümunələr və Avropa Birliyinin təcrübəsi təqdim edilmişdir.

**21-23 fevral** tarixlərində informasiya-kommunikasiya texnologiyaları sahəsində Dövlət Gömrük Komitəsində həyata keçirilən layihələrlə tanış olmaq məqsədilə Özbəkistan Respublikası Dövlət Gömrük Komitəsi əməkdaşları Bakı şəhərində işgüzar səfərdə olmuşlar. Görüş zamanı Statistika və İnformasiya Texnologiyaları Baş Gömrük rəisi, gömrük xidməti polkovniki İqbal Babayev gömrük işi sahəsində ikitərəfli münasibətlərin inkişafını və regional əməkdaşlığın əhəmiyyətini vurğulamış və Özbəkistan Respublikası gömrük əməkdaşlarına Dövlət Gömrük Komitəsi İKT infrastrukturu barədə geniş məlumat vermişdir. Səfər zamanı qonaqlar Azərbaycan Respublikasının gömrük xidmətində həyata keçirilən "Bir pəncərə" prinsipi, Vahid Avtomatlaşdırılmış İdarəetmə Sistemi (VAİS) və digər layihələrlə tanış olmuş, həmçinin xarici ticarətin gömrük statistikasının metodologiyası sahəsində fikir mübadiləsi aparmışlar. Qonaqlar həmçinin Bakı Baş Gömrük İdarəsinə səfər etmiş və gömrük rəsmiləşdirilməsi və nəzarətinin avtomatlaşdırılmış sistemi ilə tanış olmuşlar.

**21-26 fevral** tarixlərində Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-leytenantı Aydın Əliyevin rəhbərlik etdiyi nümayəndə heyəti Argentina Respublikası Federal Gömrük üzrə Dövlət Adminitrasiyasının (AFİP) rəhbəri Rikardo Eçeqarayın dəvəti ilə bu ölkəyə səfər etmişdir. Səfərin ilk günü DGK sədri Aydın Əliyevlə Argentina Gömrük İdarəsinin Baş direktoru xanım Maria Siamora Ayeran arasında görüş keçirilmişdir. Görüşdən sonra Argentina Gömrük Xidməti rəhbərliyinin müşayiəti ilə La Plata körfəzində yerləşən Buenos-Ayres portunun gömrük terminalına səfər edilmişdir. Daha sonra Argentinanın iqtisadi yönümlü dövlət qurumlarının, işgüzar dairələrinin, ticarət və sənaye palatalarının, iqtisadi, sənaye, istehsalçılar, həmkarlar ittifaqı birliklərinin və ölkənin aparıcı KİV-lərinin iştirakı ilə konfrans keçirilmişdir. Konfransdan sonra "Azərbaycan Respublikası Hökuməti və Argentina Respublikası Hökuməti arasında gömrük işi sahəsində əməkdaşlıq və

qarşılıqlı yardım haqqında Saziş"i imzalanmışdır. Tədbir çərçivəsində Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi tərəfindən nəşr edilmiş "Azərbaycan gömrüyü mədəni irsin keşiyində", "Azərbaycan gömrüyü tarixi təsviri sənətdə", "Gömrük gömrüyü: tarixi ənənələr və müasirlik", "Azərbaycan gömrük muzeyləri" adlı kitabların təqdimatı da keçirilmişdir. Səfərin sonuncu günü Azərbaycanın Argentinadakı fövqəladə və səlahiyyətli səfiri Məmməd Əhmədzadə və Dövlət Gömrük Komitəsinin sədri Aydın Əliyev Argentina Respublikasının xarici işlər naziri Hektor Timermanla görüşmüşlər. Görüşdə Azərbaycanla Argentina arasında əməkdaşlıq əlaqələrinin gələcək perspektivləri müzakirə edilmişdir. Bu səfər Argentina Respublikasının aparıcı elektron informasiya vasitələri tərəfindən geniş işıqlandırılmışdır.

**10 mart** tarixində Ümumdünya Gömrük Təşkilatının Bakı şəhərindəki Regional Tədris Mərkəzində gömrük tranzit rejiminin xüsusiyyətləri mövzusunda seminar keçirilmişdir. Tədbirdə tranzit gömrük rejimində mal və nəqliyyat vasitələrinin gömrük nəzarəti və gömrük rəsmiləşdirilməsi qaydaları, "Beynəlxalq tranzit daşımalar üzrə tənzimlənmə vasitələri", "BYD kitabçası tətbiq edilməklə Beynəlxalq Yük Daşımaları haqqında" Gömrük Konvensiyası, BYD kitabçasından istifadə etməklə yük daşımaları zamanı gömrük nəzarəti və gömrük rəsmiləşdirilməsi, gömrük təminatları altında nəqliyyat vasitələrinin daşımalara buraxılması prosedurları və sairə məsələlərlə bağlı toxunulmuşdur.

**21-25 mart** tarixlərində Avstriya Respublikasının Vyana şəhərində Birləşmiş Millətlər Təşkilatının Narkotik Vasitələr Komissiyasının 54-cü sessiyası keçiriomişdir. Tədbirdə Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-leytenantı Aydın Əliyevin rəhbərliyi ilə nümayəndə heyəti iştirak etmişdir. Qeyd olunan sessiya çərçivəsində Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi tərəfindən Vyana Beynəlxalq Mərkəzində narkotiklərin qanunsuz dövriyyəsinə qarşı mübarizəyə həsr olunmuş plakat, foto və digər incəsənət əsərlərindən ibarət "Narkotiklərə yox deyək" adlı sərgi, eyni zamanda Avstriya Respublikasının Federal Maliyyə Nazirliyinin Dövlət Katibi cənab Reynhold Lopatkanın təklifi ilə Vyana Beynəlxalq Hava limanında narkotiklərin və pul nominantlarının tapılmasında gömrük xidməti itlərinin tətbiqi ilə bağlı tədbir keçirilmişdir.

**29-30 mart** tarixlərində Lüksemburq Böyük Hersoqluğunda Ümumdünya Gömrük Təşkilatının Avropa Regionu Gömrük Xidməti Rəhbərlərinin Konfransı keçirilmişdir. Tədbirdə Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-leytenantı Aydın Əliyevin rəhbərliyi ilə nümayəndə heyəti iştirak etmişdir. Konfransdan əvvəl martın 28-də DGK sədri Aydın Əliyev Ümumdünya Gömrük Təşkilatının Baş Katibi Kunio Mikuriya və Rusiya Federasiyası Gömrük Xidmətinin nümayəndə heyəti ilə ikitərəfli görüşlər keçirmişdir. Konfransda müzakirə olunan əsas məsələlərdən biri – Avropa Regionu üçün Potensialın Gücləndirilməsi Strategiyasının və regional ofis üçün Konsepsiya sənədinin təqdimatları ilə Potensialın Gücləndirilməsi üzrə Regional Ofisin direktoru təyin edilmiş Rusiya Federasiyası Gömrük Xidmətinin nümayəndəsi çıxış etmiş, Bakıda inşa edilən və son tamamlama işləri həyata keçirilən Potensialın Gücləndirilməsi üzrə Regional Ofisin görüntülərindən ibarət xüsusi videofilm nümayiş etdirilmişdir. Konfransda, həmçinin cari ilin iyun ayında Lüksemburq Gömrük Xidmətinin Avropa Regionu üzrə sədr müavinliyi səlahiyyətləri başa çatdığından yeni namizədin irəli

sürülməsi məsələsi müzakirə edilmiş, Almaniya tərəfi Norveç Gömrük Xidmətinin namizədliyini irəli sürmüş, Gömrük və Rusiya tərəfi bu təklifi dəstəkləmişdir.

**6 aprel** tarixində Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-leytenantı Aydın Əliyev Birləşmiş Millətlər Təşkilatının Azərbaycandakı rezident əlaqələndiricisi Fikrət Akçuranın rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir. Aydın Əliyev 1999-cu ilin yanvar ayından icrasına başlanılan BMT İP və Gömrük Hökuməti arasında "Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi Potensialının Gücləndirilməsi və Məlumatların Ötürülməsi Şəbəkəsinin Yaradılması" layihəsinin uğurla davam etdiyini məmnunluqla xatırlamış, bu layihənin avtomatlaşdırılmış idarəetmə sisteminin yaradılması sahəsində gömrük xidmətinin inkişafına olduqca müsbət təsirindən danışmışdır. Birgə gerçəkləşdirilən layihələrin bütövlükdə BMT İnkişaf Proqramının Dövlət Gömrük Komitəsinə xüsusi diqqət və qayğısının təzahürü kimi qiymətləndirən sədr avtomatlaşdırılmış sistemin informasiya mübadiləsinə və məlumatların operativ surətdə sərhəddən mərkəzə çatdırılmasına münbit şərait yaratdığını, gömrük prosedurlarının və potensialının gücləndirilməsi üzrə planlaşdırılan fəaliyyətin inkişafına layiqli töhfə verdiyini xüsusi olaraq vurğulamışdır. Öz növbəsində Fikrət Akçura müstəqil Azərbaycanın gömrük orqanlarının inkişaf tendensiyasından razılığını ifadə etmiş, BMT İnkişaf Proqramı ilə gömrük xidməti arasında əməkdaşlığı yüksək qiymətləndirmişdir.

**11 aprel** tarixində Ümumdünya Gömrük Təşkilatının Bakı şəhərindəki Regional Tədris Mərkəzində "Harmonik Sistem 2012-nin tətbiqi və tarif idarəetməsi" mövzusunda regional seminar keçirilmişdir. Seminarın ilk iş günündə tədbir iştirakçılarına – ÜGT və onun missiyası, Harmonik Sistem Konvensiyası, Harmonik Sistem strukturu, ümumi təsnifat prinsipləri, ümumi şərh qaydaları və qeydlər, Harmonik Sistemin təkmilləşdirilməsi, Harmonik Sistem üzrə komitələr və sistemin təkmilləşdirilməsində onların rolu mövzularında məruzələr təqdim edilmişdir. Tədbirə Gömrük, Türkiyə, Albaniya, Serbiya, Makedoniya, Xorvatiya, Monteneqro, Gürcüstan, Ukrayna, Moldova, Belarus, Latviya, Rusiya, Özbəkistan və Qırğız respublikalarının gömrük xidməti əməkdaşları qatılmışdır.

**12-13 aprel** tarixlərində Bakı şəhərindəki "Crescent Beach" otelində BMT Təhlükəsizlik Şurasının 1540 saylı qətnaməsinin icrası üzrə Avro-Atlantik Tərəfdaşlıq Şurasının seminarı keçirilmişdir. Tədbir ümumilikdə kütləvi qırğın silahlarının yayılması ilə mübarizədə, kütləvi qırğın silahlarının, ikili təyinatlı malların və texnologiyaların qaçaqmalçılığının qarşısının alınmasında əməkdaşlıq məsələlərinə həsr olunmuşdur. Seminara Gömrük, Belarus, Gürcüstan, Qazaxıstan, Özbəkistan, Litva, Norveç, Rumıniya, Serbiya, ABŞ və aidiyyəti beynəlxalq təşkilatların nümayəndələri qatılmışdır. Seminarda Azərbaycanın bu tədbirdə ev sahibliyi etməsinin sözügedən qətnamənin icrasına, ümumilikdə isə çoxtərəfli yayılmaya və ixraca nəzarət rejimləri və sazişlərin icrasına verdiyi əhəmiyyətinin göstəricisi olduğu bildirilmişdir. Eyni zamanda, Azərbaycanın ixraca nəzarət sistemi və müvafiq qanunvericilik bazası haqqında təqdimat da iştirakçıların diqqətinə çatdırılmış və BMT Təhlükəsizlik Şurasının 1540 saylı qətnaməsinin tələblərinin yerinə yetirilməsi istiqamətində Azərbaycanda gömrük xidmətinin həyata keçirdiyi tədbirlər haqqında da məlumat verilmişdir. Tədbirdə bütün

məsələlər ətrafında müzakirələr aparılmış, seminar iştirakçılarının sualları beynəlxalq ekspertlər tərəfindən cavablandırılmışdır.

**11-15 aprel** tarixlərində Ümumdünya Gömrük Təşkilatının Bakı şəhərindəki Regional Tədris Mərkəzində "Harmonik Sistem 2012 tətbiqi və tarif idarəetməsi" mövzusunda regional seminar keçirilmişdir. Tədbirdə Gömrük, Türkiyə, Albaniya, Serbiya, Makedoniya, Xorvatiya, Monteneqro, Gürcüstan, Ukrayna, Moldova, Belarus, Latviya, Rusiya, Özbəkistan və Qırğız respublikalarının gömrük xidməti əməkdaşları iştirak etmişlər. Seminarda Ümumdünya Gömrük Təşkilatının Bakıdakı Regional Tədris Mərkəzində vaxtaşırı keçirilən belə tədbirlərin məhz kadrların hazırlanması, eləcə də beynəlxalq əməkdaşlığın genişləndirilməsinə xidmət etdiyi vurğulamış, indiyədək Mərkəzdə əsasən GUAM və İqtisadi Əməkdaşlıq Təşkilatının üzvü olan ölkələrin gömrük xidməti əməkdaşları üçün seminarların təşkil olunduğunu bildirilmişdir. Eyni zamanda, malların təsnifatı məsələsinə toxunularaq bu məsələnin hər bir ölkənin gömrük xidməti üçün çox mühüm olduğu vurğulanmışdır. Qeyd edilmişdir ki, hazırda yaşadığımız elmi-texniki tərəqqi dövründə bütün sahələrdə, o cümlədən gömrük xidmətində sürətli dəyişikliklərə zərurət yaranmışdır. Bundan başqa, seminar çərçivəsində Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi Mərkəzi Laboratoriyasının təqdimatı keçirilmiş, həmçinin tədbir iştirakçıları bu laboratoriyanın fəaliyyətilə yaxından tanış olmuşlar. Seminar çərçivəsində iştirakçılar tərəfindən təqdim edilmiş təsnifat məsələlərinin müzakirəsi, eləcə də özəl sektor üçün açıq sessiya da keçirilmişdir.

**23 aprel** tarixində Ümumdünya Gömrük Təşkilatının Bakıdakı Regional Tədris Mərkəzində "Xarici iqtisadi fəaliyyət və beynəlxalq daşımalar üzrə Qaydalar (gömrük aspekti)" mövzusunda seminar keçirilmişdir. Nəqliyyat daşımaları və nəqliyyat-ekspedisiya şirkətlərinin nümayəndələrinin qatıldığı seminarda məqsəd onları sözügedən sahədə qanunvericilik və gömrük işi ilə yaxından tanış etmək olmuşdur. Seminarda xarici iqtisadi fəaliyyət və beynəlxalq daşımalara dair həm yerli, həm də beynəlxalq qanunvericilik barədə bilgilər verilmiş, bu sahədə yeniliklər və digər məsələlərdən söhbət açılmış, həmçinin gələcək perspektivlər müzakirə edilmişdir. Tədbirdə BYD prosedurları, təhlükəli yüklərin daşınması qaydaları, beynəlxalq ticarətdə təhlükəsizlik tədbirlərinin təmin edilməsində qarşılıqlı fəaliyyət, gömrük rəsmiləşdirilməsi prosedurları, beynəlxalq yük daşımalarında elektron gömrük xidməti və digər məsələlər barədə çıxışlar edilmiş və sonda mövzu ətrafında müzakirələr və fikir mübadiləsi aparılmışdır.

**26 aprel** tarixində Mərkəzi Asiya Regional İqtisadi Əməkdaşlıq (CAREC) təşkilatı tərəfindən Özbəkistan Respublikasının Daşkənd şəhərində "Buraxılış vaxtının təhqiqatı"nın planlaşdırılması mövzusunda seminar keçirilmişdir. Tədbirdə Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi nümayəndə heyəti iştirak etmişdir. Seminarda sərhədlərdə infrastrukturun inkişafı, avadanlıqlar, anbarlar və s. faktorların keçid müddətləri ilə birbaşa bağlı olması barəsində danışılmış və ən yaxşı beynəlxalq təcrübələr təqdimatlarda nümayiş etdirilmişdir. Ümumdünya Gömrük Təşkilatının nümayəndəsi tərəfindən "Buraxılış vaxtının təhqiqatı" metodologiyası barəsində təqdimat olmuş, ÜGT çərçivəsində qəbul olunmuş konvensiyalar və sazişlər haqqında

danışılmış, ÜGT-nin bəzi tövsiyələri haqqında da məlumat verilmişdir. Bu tövsiyələrdən birinin də "Buraxılış vaxtının təhqiqatı" tövsiyə xarakterli sənədin olduğu, bu da ölkələrdə "Dar dəhlizlər"in araşdırılıb müəyyən edilməsi üçün metodologiya olduğu bildirilmişdir. "Dar dəhlizlər" anlayışı biznes-gömrük, gömrük-gömrük istiqamətlərində müxtəlif yanaşma istiqamətlərini müəyyən edir. Malın sərhəd-keçid məntəqəsinə daxil olması, müəyyən gömrük rejiminin seçilməsi və malın buraxılması sahəsində "Buraxılış vaxtının təhqiqatı"nı nəzərdə tutur. Seminar çərçivəsində Özbəkistan-Qazaxıstan sərhədindəki Yalama gömrük-keçid məntəqəsinə səfər təşkil edilmiş, sərhəddə post və onun fəaliyyəti barəsində məlumat verilmiş və iştirakçıların sualları cavablandırılmışdır.

**4 may tarixində** Bakı şəhərində Birləşmiş Ərəb Əmirlikləri Hökuməti və Azərbaycan Respublikası Hökuməti arasında iqtisadi, ticarət və texniki əməkdaşlıq üzrə Birgə Hökumətlərarası Komissiyasının 3-cü iclası keçirilmişdir. İclasda, Azərbaycanda bir sıra ölkələrlə, o cümlədən, Birləşmiş Ərəb Əmirlikləri ilə əlaqələrin genişlənməsinə xüsusi önəm verildiyi, əlaqələrin genişlənməsində maraqlı olunduğu vurğulanmış və bunun üçün hər iki ölkənin böyük potensiala malik olunduğu qeyd edilmişdir. Son illər Gömrük və Birləşmiş Ərəb Əmirlikləri arasında ticari-iqtisadi əlaqələrin genişləndiyi, bununla əlaqədar hər iki ölkənin gömrük orqanlarının da üzərinə mühüm vəzifələr düşdüyü və beləliklə gömrük sahəsində qarşılıqlı əməkdaşlıq əlaqələrinin inkişaf etdirilməsinə zərurət yarandığı qeyd edilmişdir. DGK sədri Aydın Əliyev "Azərbaycan Respublikası Hökuməti və Birləşmiş Ərəb Əmirlikləri Hökuməti arasında gömrük işi sahəsində əməkdaşlıq və qarşılıqlı yardım haqqında Saziş"in hər iki ölkə üçün faydalı olacağına əminliyini ifadə edərək, tərəflərə uğular arzulamışdır. İclas çərçivəsində "Azərbaycan Respublikası Hökuməti və Birləşmiş Ərəb Əmirlikləri Hökuməti arasında gömrük işi sahəsində əməkdaşlıq və qarşılıqlı yardım haqqında Saziş" imzalanmışdır.

**12-13 may** tarixlərində Makedoniya Respublikası Gömrük İdarəsinin Baş direktoru Vanço Karqovun rəhbərlik etdiyi nümayəndə heyəti Azərbaycanda səfərdə olmuşdur. Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-leytenantı Aydın Əliyev ilə keçirilən ikitərəfli görüş zamanı iki ölkə arasında mövcud əlaqələrdən söhbət açılmış və bu gün davamlı iqtisadi inkişaf tempi ilə irəliləyən Azərbaycanın dünya dövlətləri o cümlədən, Makedoniya ilə bütün sahələrdə sıx əməkdaşlıq əlaqələri yaratmaqda maraqlı olduğu qeyd edilmişdir. Həmçinin, iki ölkənin gömrük xidmətləri arasında əlaqələrə toxunulmuş ötən ilin iyununda Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi nümayəndə heyətinin Makedoniya Respublikasına səfəri xatırladılmış, bu səfərin sözügedən ölkənin Gömrük İdarəsinin fəaliyyətilə yaxından tanışlıq və əməkdaşlıq imkanlarını nəzərdən keçirmək üçün çox faydalı olduğu bildirilmişdir. Səmimi qəbula və qonaqpərvərliyə görə Dövlət Gömrük Komitəsinin sədri Aydın Əliyevə təşəkkür edən Makedoniya Respublikası Gömrük İdarəsinin Baş direktoru Vanço Karqov Azərbaycanda ilk dəfə səfərdə olduğunu və burada az müddətdə böyük təəssüratlar əldə etdiyini vurğulayaraq, həqiqətən ölkədə iqtisadi tərəqqinin şahidi olduğunu bildirmişdir.

**16 may – 16 iyun** tarixlərində "Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi və Monqolustan Baş Gömrük İdarəsi arasında kadrların peşəkar hazırlığı və ixtisasının artırılması sahəsində əməkdaşlıq haqqında Protokol"a uyğun olaraq, Monqolustan Baş

Gömrük İdarəsinin kinoloqları Dövlət Gömrük Komitəsi Kinoloji Mərkəzində yerli kinoloqların təcrübəsindən yararlanmaq məqsədilə təlim kursları keçmişlər. Təlim müddətində kinoloqlar xidməti itlərdən narkotik vasitələrin, silah-sursatın axtarışında daha da səmərəli istifadə etməyi öyrənmiş , eyni zamanda gündəlik iki saat müddətində tədris materiallarının köməyi ilə nəzəri təcrübədən yararlanmışlar. Kinoloji Mərkəzin bazasında onlara ayrılmış iki baş xidməti it ilə təlim kurslarına qatılan monqolustanlı kinoloqlar Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi Kinoloji Mərkəzinin üstün imkanlarından razılıqlarını ifadə etmiş, beynəlxalq standartlar səviyyəsində inşa edilən bu müasir təlim ocağında keçirilən kursların qarşılıqlı əməkdaşlığın daha da genişləndirilməsinə zəmin yaradacağına əminliklərini ifadə etmişlər. Sonda qonaqların təlim keçdiyi itlərə xüsusi sertifikatlar verilmiş, eləcə də Monqolustan Baş Gömrük İdarəsinə Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi tərəfindən təlim keçmiş bu iki baş it hədiyyə edilmişdir. Xatırladaq ki, Azərbaycan Gömrük Xidməti tərəfindən Bolqarıstan, Moldova, Rumıniya, Türkiyə, Gürcüstan və Makedoniya gömrük xidmətlərinə də təlim keçmiş itlər hədiyyə olaraq verilmişdir.

**25 may** tarixində Bakıdakı “Crescent Beach” hotelində GUAM Ticarət və Nəqletməyə Yardım layihəsinin həyata keçirilməsi üzrə Rəhbəredici Komitənin 14-cü iclası keçirilmişdir. Tədbirdə GUAM üzvü olan ölkələrin – Gömrük, Gürcüstan, Ukrayna və Moldovanın gömrük xidmətlərinin nümayəndələri iştirak etmişlər. Rəhbəredici Komitənin iclasından bir gün öncə, mayın 24-də Bakıda GUAM Ticarət və Nəqletməyə Yardım layihəsi üzrə ekspertlərin ayrıca iclası da təşkil olunmuşdur. Ekspertlər Rəhbəredici Komitənin 14-cü iclasında baxılacaq məsələləri müzakirə etmiş, eyni zamanda, sözügedən iclasın Protokol layihəsini hazırlamışlar. İclasda ticarətin asanlaşdırılması və daşımalara yardım, GUAM-ın nəqliyyat dəhlizinin təhlükəsiz istifadəsi, narkotik vasitələrin qanunsuz dövriyyəsi, qaçaqmalçılıq və gömrük qanunvericiliyinin pozulması, eləcə də beynəlxalq terrorizmlə mübarizə sahəsində üzv ölkələr arasında qarşılıqlı münasibətlərin möhkəmləndirilməsi və inkişafı yolunda səmərəli və konstruktiv fikir mübadiləsi aparılmış, GUAM çərçivəsində Ticarət və Nəqletməyə Yardım layihəsinin gömrük və sərhəd sahəsində ən cəsarətli planların gerçəkləşdirilməsində, onların fəaliyyətinin təkmilləşdirilməsi və müasirləşdirilməsində, eləcə də əməkdaşlığın gücləndirilməsində region üçün etibarlı platforma kimi çıxış etdiyi vurğulanmışdır. GUAM Ticarət və Nəqletməyə Yardım layihəsinin bu quruma üzv olan ölkələr qarşısında mühüm vəzifələr qoyduğu və bu istiqamətdə bir sıra işlərin görüldüyü söylənilmiş, eyni zamanda üzv ölkələr arasında yüklərin daşınması zamanı təhlükəsizlik məsələləri əsas rol oynadığı nəzərə çatdırmışdır. Bundan başqa, qadağan olunmuş malların gömrük sərhədindən keçirilməsinin qarşısının alınması yolları da müzakirə mövzusu olmuşdur.

**24-26 may** tarixlərində Sinqapurda “Yayılmama üzrə Şəbəkənin qurulması: 12-ci Beynəlxalq İxrac Nəzarəti Konfransı” keçirilmişdir. Ümumilikdə dünyanın 75 ölkəsindən 300-ə qədər nümayəndənin qatıldığı konfransda Gömrük tərəfindən Dövlət Gömrük Komitəsi, Xarici İşlər, Sənaye və Energetika Nazirliklərinin nümayəndələri də iştirak etmişlər. Konfransda “Strateji Ticarətə Nəzarətin Qanuni Ticarətə Təsiri”, “Vassenar Razılaşması və Texnologiyaların qeyri-maddi transferi”, “Hədələrə cavab və tranzitdə ətraflı yoxlama”, ikili təyinatlı mallara səmərəli nəzarət, onların qanunsuz dövriyyəsinə qarşı mübarizə, ixrac nəzarətinə düşən malların eyniləşdirilməsi sahəsində gömrük

əməkdaşlarının təlimi, qeyd olunan sferalarda milli təcrübə məsələlərinə dair təqdimatlar edilmişdir. Konfransda dünya ticarətində paylayıcı mərkəzlərin artan rolundan danışılmış, tranzit daşımaları ilə yenidənyükləmə (transshipment) əməliyyatlarının fərqli xüsusiyyətləri və bu fərqlilikdən irəli gələrək tətbiq olunan ixrac nəzarəti formalarının bir sıra aspektləri izah edilmişdir.

**7-10 iyun** tarixlərində Rusiya Federasiyasının İrkutsk şəhərində Müstəqil Dövlətlər Birliyi iştirakçı dövlətlərin Gömrük Xidməti Rəhbərləri Şurasının 53-cü iclası keçirilmişdir. Tədbirdə Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-leytenantı Aydın Əliyevin rəhbərliyi altında nümayəndə heyəti iştirak etmişdir. İclasda MDB iştirakçı dövlətlərin Gömrük Xidməti Rəhbərləri Şurasının 52-ci iclasında qəbul olunmuş qərarların yerinə yetirilməsinin vəziyyəti, gömrük işi sahəsində MDB iştirakçı dövlətlərin beynəlxalq hüquq bazasının inventarlaşdırılması, 2015-ci ilə qədər olan müddətdə Rusiya Gömrük Akademiyasının bazası əsasında MDB iştirakçı dövlətlərin gömrük xidmətləri üçün kadrların ixtisasyönlü hazırlanması Konsepsiyasının işlənməsi, Moldova Respublikası və Ukrayna gömrük xidmətləri arasında əvvəlcədən məlumat mübadiləsinin inkişaf etdirilməsinin nəticələri barədə çıxışlar olmuşdur. İclasın sonunda MDB iştirakçı dövlətlərin Gömrük Xidməti Rəhbərlərinin mətbuat konfransı keçirilmiş və jurnalistlərin sualları ətraflı cavablandırılmışdır.

**14 iyun** tarixində Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-leytenantı Aydın Əliyev Dünya Bankının nümayəndələri Jozef Ouen və xanım Raşmi Şankarı qəbul etmişdir. Dünya Bankı ilə Gömrük Xidməti arasında mövcud əlaqələrdən məmnunluqla söhbət açmış, əməkdaşlığın gələcək perspektivlərindən bəhs etmişdir. Avropa Komissiyası və BMT İnkişaf Proqramının dəstəyi ilə hazırlanan Azərbaycan Respublikasının yeni Gömrük Məcəlləsi layihəsinin artıq ölkə parlamentinə təqdim edilərək ikinci oxunuşdan keçdiyini xatırladan Komitə sədri qanunvericilik bazasının daha da möhkəmləndirilməsinə yönəlik tədbirlərdən də söhbət açmışdır. Səmimi qəbula və ətraflı məlumata görə Dövlət Gömrük Komitəsinin sədri Aydın Əliyevə təşəkkür edən Dünya Bankının nümayəndəsi Jozef Ouen artıq on aya yaxındır ki Bakıda olduğunu, respublikamızın hərtərəfli inkişafının onda xoş təəssüratlar yaratdığını bidirmişdir. Dünya Bankının Gömrük üzrə baş mütəxəssisi xanım Raşmi Şankarı DGK rəhbərliyinə təqdim edən J.Ouen gömrük sistemində baş verən müsbət dəyişikliklərin öyrənilməsi üçün xanım R. Şankara şərait yaradılacağına ümidvar olduğunu bildirmişdir.

**20-24** iyun tarixlərində Ümumdünya Gömrük Təşkilatının Bakıdakı Regional Tədris Mərkəzində Avropa İttifaqının "İqtisadi Əməkdaşlıq Təşkilatı üzv ölkələri üçün Əfqanıstandan narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə" layihəsinin 3-cü komponenti üzrə ilk tədris kursu keçirilmişdir. BMT-nin Narkotiklər və Cinayətkarlıq üzrə İdarəsi və ÜGT-nin təşkil etdikləri bu tədbir Azərbaycanın gömrük və sərhəd xidməti orqanlarının əməkdaşları üçün nəzərdə tutulmuşdur. Tədris kursunun açılış mərasimində Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi nümayəndəsi bildirmişdir ki, Azərbaycanda narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsi və narkomanlığın yayılması ilə mübarizə sahəsində görülən işlər daim ölkə rəhbərliyinin diqqətindədir. O əmin olduğunu bildirmişdir ki, Bakıda təşkil olunan ilk tədris kursu da bu istiqamətdə yerli gömrük və

sərhəd xidməti orqanlarının işinə öz töhfəsini verəcək, narkotik vasitələrin qanunsuz daşınmasına qarşı mübarizənin, xüsusilə də dəniz yükdaşımaları zamanı gömrük-sərhəd nəzarətinin ən müasir və yeni metodlarla həyata keçirilməsinə dair biliklərin əldə edilməsində böyük rol oynayacaq.

23-25 iyun tarixlərində Ümumdünya Gömrük Təşkilatının Belçika Krallığının paytaxtı Brüssel şəhərində yerləşən Baş qərargahında Gömrük Əməkdaşlıq Şurasının 117-118-ci sessiyaları keçirilmişdir. Tədbirdə Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-leytenantı Aydın Əliyevin rəhbərliyi ilə nümayəndə heyəti iştirak etmişdir. İclasa Ümumdünya Gömrük Təşkilatına üzv olan 177 ölkənin nümayəndələri, eləcə də bəzi beynəlxalq təşkilatların və özəl sektorun təmsilçiləri qatılmışdır. Sessiyada ilk öncə Ümumdünya Gömrük Təşkilatının Baş katibi Kunio Mikuriya hesabatla çıxış etmiş, Gömrük Əməkdaşlıq Şurasının keçənilki sessiyasından ötən müddət ərzində ÜGT tərəfindən gerçəkləşdirilən tədbirlər barədə iclas iştirakçılarına ətraflı məlumat vermiş və müzakirə ediləcək məsələlərin əhəmiyyətinə toxunmuşdur. Tədbirdə qlobal təchizat zəncirinin təhlükəsizliyinin təmin edilməsi və beynəlxalq ticarətin asanlaşdırılması sahəsində Ümumdünya Gömrük Təşkilatının qəbul etdiyi beynəlxalq sənədlərin əhəmiyyəti, artan terror hədələri fonunda təchizat zəncirinin təhlükəsizliyi amilinin etibarlı təmin edilməsi istiqamətində ÜGT tərəfindən atılan addımlar, xüsusilə Qlobal Qalxan Proqramı çərçivəsində partlayıcı maddələrin hazırlanmasında istifadə oluna bilən malların qanunsuz ticarətinin qarşısının alınması sahəsində keçirilmiş əməliyyatlar zamanı müsadirə edilmiş göndərişlər, beynəlxalq gömrük əməkdaşlığının beynəlxalq ticarət zəncirinin təhlükəsizliyinin təmin olunması və xərclərin azaldılmasındakı rolundan danışılmışdır. Sonra Siyasi Komissiyanın 6-8 dekabr 2010-cu il tarixdə Çin Xalq Respublikasının Şanxay şəhərində keçirilmiş 64-cü və cari ildə Belçika Krallığının Brüssel şəhərində keçirilmiş 65-ci iclası zamanı müzakirə edilmiş və bu müzakirələrin nəticəsi olaraq qəbul edilmiş qərarlar haqqında geniş hesabat təqdim edilmişdir. Növbəti gün təchizat zəncirində hava nəqliyyatı ilə həyata keçirilən gömrük işi məsələləri və bu təchizat zəncirinin təhlükəsizliyinin təmin olunması məqsədilə müvafiq tədbirlərin görülməsi və qabaqcıl təcrübələrin əldə edilməsində beynəlxalq əməkdaşlığın rolu, poçt daşımalarında gömrük işi məsələlərinə toxunmuş, hökumət orqanları ilə sıx əməkdaşlığın təhlükəsizlik baxımından yaratdığı imkanlar, Dəyişdirilmiş Kioto Konvensiyası, "Bir pəncərə" prinsipi, Buraxılış vaxtının ölçülməsinə dair Təlimat kimi sənədlərin ticarətin asanlaşdırılması sahəsində rolundan bəhs edilmişdir. Daha sonra, ÜTT danışıqlarına dəyərli töhfələr verərək müvafiq texniki dəstək göstərilməsində Ümumdünya Gömrük Təşkilatının əsas tərəfdaş kimi oynadığı əhəmiyyətli rolu vurğulanmış, qarşılıqlı fəaliyyətin bir sıra maraq doğuran məsələlərinə, o cümlədən Malların Təsviri və Kodlaşdırılması üzrə Harmonikləşdirilmiş Sistem, Mənşə Qaydaları və Qiymətləndirmə sahəsində ÜGT-nin müvafiq struktur bölmələrinin verdiyi töhfələrə toxunulmuşdur. Sessiya zamanı Ümumdünya Gömrük Təşkilatının bir sıra vəzifələrinə və strukturlarına seçkilər keçirilmişdir. İrlandiya Dövlət Gəlirləri Komissarlığının sədri Josephine Feehily ÜGT Şurasının sədri, İtaliyanın Gömrük Xidmətinin Beynəlxalq Əlaqələr üzrə direktoru Giuseppe Favale isə Ümumdünya Gömrük Təşkilatının Tarif və Ticarət Məsələləri üzrə direktoru vəzifəsinə, Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi isə Ümumdünya Gömrük Təşkilatının Maliyyə Komitəsinə üzv seçilmişdir.

**28-30 iyun** tarixlərində Argentina Respublikası Gömrük İdarəsinin Baş direktoru xanım Maria Siomara Ayeranın rəhbərlik etdiyi nümayəndə heyəti Azərbaycanda səfərdə olmuşdur. Səfərin ilk günü nümayəndə heyətinin Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi rəhbərliyi ilə görüşü keçirilmişdir. Görüşdə iki ölkə arasında mövcud əlaqələrdən söhbət açılmış və qeyd edilmişdir ki, bu gün davamlı iqtisadi inkişaf tempi ilə irəliləyən Gömrük bütün dünya dövlətləri, o cümlədən Argentina ilə bütün sahələrdə sıx əməkdaşlıq əlaqələri yaratmaqda maraqlıdır. Azərbaycanla Argentina arasında əlaqələrin müxtəlif sahələrdə, o cümlədən gömrük işi sahəsində genişləndirilməsi üçün böyük potensialın olduğunu və bu imkandan maksimum yararlanmağın vacibliyi vurğulanmışdır. İki ölkənin gömrük xidmətləri arasında əlaqələrə toxunularaq, bu ilin fevralında Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi nümayəndə heyətinin Argentina Respublikasına səfərinin sözügedən ölkənin Gömrük İdarəsinin fəaliyyətilə yaxından tanışlıq və əməkdaşlıq imkanlarını nəzərdən keçirmək üçün çox faydalı olduğu bildirilmişdir.

**28 iyun – 3 iyul** tarixlərində Moskva şəhərində Ümumrusiya sərgi mərkəzinin ərazisində Müstəqil Dövlətlər Birliyinin 20 illiyinə həsr olunmuş “MDB – 20 il: əməkdaşlığın yeni üfüqləri” adlı sərgi keçirilmişdir. Tədbirdə Gömrük, Belarus, Ukrayna, Moldova, Qazaxıstan, Qırğızıstan, Türkmənistan, Tacikistan, Rusiya və Ermənistanın nümayəndə heyətləri iştirak etmişlər. Sərginin məqsədi MDB dövlətləri arasında iqtisadiyyatın, ictimai və humanitar sahələrin prioritet istiqamətləri üzrə dövlətlərarası əməkdaşlığın, eləcə də sözügedən dövlətlərin innovasiya və investisiya imicinin formalaşdırılması, konstruktiv qarşılıqlı əlaqələrin və strateji əməkdaşlığın inkişafına yardım etmək olmuşdur. Azərbaycan Respublikasının ekspozisiyasında sosial-iqtisadi həyatın müxtəlif sahələrində əldə edilən milli nailiyyətlər əks olunmuşdur. Bura – gənclər siyasəti və idman, səhiyyə, əməyin mühafizəsi, təhsil, mədəniyyət, turizm, informasiya texnologiyaları, nəqliyyat, kənd təsərrüfatı, yanacaq-energetika kompleksi və ekoloji təhlükəsizlik sahələri daxil edilmişdir. Sərgidə MDB bazarında fəaliyyət göstərən 30-a yaxın şirkət də təmsil olunmuş, ümumilikdə isə 1200-dən artıq iştirakçı öz ekspozisiyasını təqdim etmişdir. Qeyd edək ki, sərginin açılış mərasimində Azərbaycan Respublikası Baş nazirinin müavini Yaqub Eyyubov iştirak etmişdir. Gömrük nümayəndə heyətinə Dövlət Gömrük Komitəsi təmsilçisi də qatılmış və sərgidə Azərbaycanda informasiya-kommunikasiya texnologiyalarından bəhs edən stenddə gömrük sahəsində tətbiq olunan elektron xidmətlər barədə məlumat da öz əksini tapmışdır.

**18-19 iyul** tarixlərində Bakı şəhərində, “Crescent Beach” hotelində transmilli narkoqruplaşmaların fəaliyyətinin qarşısının alınmasına yönəlmiş tədbirlərin əlaqələndirilməsi üzrə işçi görüş keçirilmişdir. Tədbir Mərkəzi Asiya Regional İnformasiya-Əlaqələndirmə Mərkəzi (CARICC), BMT-nin Narkotiklər və Cinayətkarlıq üzrə İdarəsi (UNODC) və Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi tərəfindən birgə təşkil edilmişdir. Tədbirə Gömrük da daxil olmaqla, 16 ölkənin, o cümlədən, Qazaxıstan, Özbəkistan, Qırğız, Tacikistan, Cin, Rusiya, Ukrayna, Türkiyə, Böyük Britaniya, Fransa, Almaniya, İtaliya, İsveç, ABŞ və Kanadanın, eləcə də CARICC, UNODC və SECI-nin (Cənub-Şərqi Avropa üzrə Əməkdaşlıq Təşəbbüsü Mərkəzi)

nümayəndələri qatılmışdır. Görüşdə, Gömrük hüquq-mühafizə orqanlarının məqsədyönlü tədbirləri nəticəsində təkcə 2010-cu ildə 3197 narkocinayət faktı aşkarlandığı, bunun da 2006-cı illə müqayisədə 1,38 dəfə çox olduğu bildirilmişdir. “Əfqan” faktoru ilə bağlı daha bir rəqəm qanunsuz dövriyyədən çıxarılan narkotiklərin həcmi ilə bağlıdır. Belə ki 2010-cu ildə dövriyyədən çıxarılan narkotiklərin həcmi 2 ton 400 kq təşkil etmişdir. Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi hüquq-mühafizə fəaliyyətində əsas istiqamətin ölkənin gömrük ərazisindən narkotik vasitələrin qanunsuz keçirilməsinin qarşısının alınması olduğunu söyləyən Ə.Abdullayev qeyd etmişdir ki, bu məqsədlə gömrük nəzarətinin və əməliyyat-axtarış fəaliyyətinin gücləndirilməsi, gömrük əməkdaşlarının peşəkar hazırlığının artırılması, eləcə də texniki vasitələrin tətbiqinə xüsusi diqqət yetirilir. Əsas sərhəd-gömrük keçid məntəqələri ən müasir standartlara uyğunlaşdırılmış və həmin məntəqələrdə irihəcmli nəqliyyat vasitələrinə baxış keçirmək imkanı verən 4 ədəd mobil yoxlama qurğusu tətbiq olunmuşdur. Tədbirdə “Prekursorların qaçaqmalçılıq yolu ilə “Şimal” marşrutu vasitəsilə Əfqanıstana daşınması” mövzusuna həsr edilmiş məruzələr dinlənilmiş, onlar ətrafında müzakirələr aparılmış, eləcə də narkotik vasitələr, psixotrop maddələr və onların prekursorlarının qanunsuz dövriyyəsinə qarşı mübarizədə səylərin birləşdirilməsinə dair görüş iştirakçılarının təklifləri və s. məsələlər nəzərdən keçirilmişdir.

**9 avqust** tarixində Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-leytenantı Aydın Əliyev Amerika Birləşmiş Ştatlarının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Metyu Brayzanın rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir. Aydın Əliyev Azərbaycanla Amerika Birləşmiş Ştatları arasında bütün sahələr üzrə əməkdaşlığın yüksələn xəttlə inkişaf etdiyini məmnunluqla diqqətə çatdırmış, ölkəmizin dünyanın ən inkişaf etmiş dövlətlərindən biri olan ABŞ ilə əlaqələrə xüsusi önəm verdiyini bildirmişdir. Qanunvericilik bazasının möhkəmləndirilməsinə daima xüsusi önəm verildiyini vurğulayan Komitə sədri Dövlət Gömrük Komitəsində Avropa İttifaqı və BMT-nin İnkişaf Proqramı tərəfindən “Azərbaycan Gömrük Xidmətinin təkmilləşdirilməsi” layihəsi çərçivəsində Azərbaycan Respublikasının yeni Gömrük Məcəlləsinin layihəsinin hazırlandığını və sənədin bu ilin fevralında Milli Məclisin müzakirəsinə təqdim olunduğunu diqqətə çatdırmış, ardıcıl müzakirələrdən sonra, bir müddət bundan öncə Milli Məclisin növbədənkənar iclasında Azərbaycan Respublikasının yeni Gömrük Məcəlləsinin layihəsinin üçüncü oxunuşda qəbul edildiyini bildirmişdir. DGK sədri eyni zamanda, qeyd etmişdir ki, Gömrük Prezidentinin “Azərbaycan Respublikası dövlət sərhədinin buraxılış məntəqələrindən keçirilən malların və nəqliyyat vasitələrinin yoxlanılmasında “bir pəncərə” prinsipinin tətbiqi haqqında” fərmanına əsasən, 2009-cu il yanvarın 1-dən dövlət sərhədinin buraxılış məntəqələrində “bir pəncərə” prinsipi tətbiq edilərək, sərhəd-keçid məntəqələrində nəzarət növlərini inteqrə edilmiş qaydada həyata keçirməklə sərhəd-keçid prosedurlarının daha da sadələşdirilməsi, nəqliyyat və mal axınına əlverişli şərait yaradılması, vaxt itkisinin minimuma endirilməsi və bu sahədə qabaqcıl dövlətlərdə olduğu kimi, minimum vaxt limitlərinə riayət edilməsinə nail olunmuşdur.

**10 avqust** tarixində Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-leytenantı Aydın Əliyev Dünya Bankının yüksək səviyyəli eksperti, professor Simon Komanderin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir. Komitə sədri Dünya

Bankı ilə Azərbaycan Gömrük Xidməti arasında mövcud əlaqələrdən məmnunluqla söhbət açmış, əməkdaşlığın gələcək perspektivlərindən bəhs etmişdir. Avropa Komissiyası və BMT İnkişaf Proqramının dəstəyi ilə hazırlanan Azərbaycan Respublikasının yeni Gömrük Məcəlləsi layihəsinin artıq ölkə parlamentində üçüncü oxunuşda qəbul edildiyini xatırladan Komitə sədri qanunvericilik bazasının daha da möhkəmləndirilməsinə yönəlik digər tədbirlərdən də söhbət açmışdır. Azərbaycanda biznes mühitinin yaxşılaşdırılması istiqamətində xeyli işlərin görüldüyünü vurğulayan Komitə sədri Dünya Bankı və Beynəlxalq Maliyyə Korporasiyasının birgə hazırladığı, dünya ölkələri üzrə biznes mühitinin qiymətləndirilməsini aparan «Doing business» hesabatına münasibətini açıqlamış, gömrük sisteminə aid bəzi məqamlarla razılaşmadığını söyləmiş, mövcud anlaşılmazlıqların qarşılıqlı müzakirələr müstəvisində aradan qaldırılacağına ümidvar olduğunu bildirmiş və əsl gerçəkləri konkret faktlarla qonaqların diqqətinə çatdırmışdır. Səmimi qəbula və ətraflı məlumata görə Dövlət Gömrük Komitəsinin sədri Aydın Əliyevə təşəkkür edən Dünya Bankının yüksək səviyyəli eksperti, professor Simon Komander respublikamızın hərtərəfli inkişafının onda xoş təəssüratlar yaratdığını bildirmişdir.

**22-25 avqust** tarixlərində Rusiya Federasiyası Federal Gömrük xidməti Ural Gömrük İdarəsinin rəisi, gömrük xidməti general-leytenantı Vladimir Sorokinin rəhbərlik etdiyi nümayəndə heyəti respublikamızda səfərdə olmuşdur. Dövlət Gömrük Komitəsinin sədri Aydın Əliyev qonaqları səmimiyyətlə qarşılamış, iki ölkə arasında mövcud əlaqələrdən məmnunluqla söhbət açmış, Gömrük və Rusiya prezidentləri İlham Əliyevin və Dmitri Medvedevin qarşılıqlı səfərlərini, keçirdikləri səmərəli görüşləri, eləcə də bu səfərlər zamanı imzalanan sənədləri strateji tərəfdaşlıq müstəvisinə söykənən Gömrük-Rusiya münasibətlərinin inkişafına dəyərli töhvə kimi qiymətləndirmişdir.

**5-8 sentyabr** tarixində Moskva şəhərində Rusiya Federasiyası Federal Gömrük Xidmətinin Kinoloji Mərkəzində Müstəqil Dövlətlər Birliyi gömrük xidmətlərinin kinoloji qurumları arasında müxtəlif mərhələli yarış keçirilmişdir. İlk dəfə təşkil olunan bu yarışa Rusiya, Gömrük, Belarus, Ukrayna, Moldova, Ermənistan, Qazaxıstan və Qırğız gömrük xidmətləri kinoloji mərkəzlərinin təmsilçiləri qatılmışlar. Yarışda Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi Kinoloji Mərkəzinin təlimçisi öz xidməti iti ilə yük avtomobillərinin axtarışında 1-ci yerə layiq görülmüşdür. Kinoloqumuz yük avtomobilinin axtarışında 12 dəqiqə vaxt əvəzinə 15 saniyə ərzində həmin avtomobildə narkotik vasitəni aşkar edə bilmişdir. Qeyd edək ki, Gömrük tərəfi yarışa bir xidməti itlə qatılmışdır. Bundan başqa, təmsilçimiz yarışın şəxsi birinciliyində 3-cü yeri tutmuşdur. Burada isə 1-ci və 2-ci yerləri Rusiya Federasiyasının kinoloqları tutmuşlar. Beləliklə, yarışda ümumi hesabla Gömrük tərəfi maksimum 400 mümkün baldan 351 bal toplayaraq Rusiya Federasiyasından sonra 2-ci, şəxsi birincilikdə isə 3-cü yeri qazanmışdır.

**12-13 sentyabr** tarixində Bakı şəhərində Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpasının 20-ci ildönümünə həsr olunmuş – gömrük xidmətində informasiya-kommunikasiya texnologiyalarının tətbiqi üzrə “Elektron gömrük xidmətləri: gələcəyə baxış” mövzusunda III beynəlxalq elmi-praktiki konfrans keçirilmişdir. Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi və Rusiya Federasiyası Federal

Gömrük Xidmətinin birgə təşkil etdikləri bu tədbirdə əsas məqsəd – gömrük işində informasiya sistemləri və informasiya texnologiyalarının tətbiqi təcrübəsinin öyrənilməsi və gömrük xidmətində informasiya texnologiyalarının gələcək inkişaf istiqamətlərinin müəyyən edilməsi olmuşdur. Konfransın açılış mərasimində Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-leytenantı Aydın Əliyev Azərbaycan Respublikası rabitə və informasiya texnologiyaları nazirinin müavini Elmir Vəlizadə, BMT-nin Gömrük üzrə rezident əlaqələndiricisi Fikrət Akçura, Rusiya Federasiyası Federal Gömrük Xidmətinin İnformasiya Texnologiyaları Baş Gömrük rəisi Aleksey Şaşayev, Azərbaycan Respublikası Milli Elmlər Akademiyası Kibernetika İnstitutunun direktoru Telman Əliyev, Ukrayna Elmlər Akademiyasının akademiki, Ukrayna maliyyə nazirinin baş müşaviri Sergey Buşuyev və Türkiyə Qazi Universiteti Texnologiya Fakültəsinin Elektrik və Elektron Mühəndislik Departamentinin direktoru Çetin Elmas iştirak etmişlər. Daha sonra konfransın plenar iclası işə başlamış, gömrük işində İKT-nin tətbiqi və elektron xidmətlərin göstərilməsi barədə müxtəlif çıxışlar dinlənilmişdir. “Elektron gömrük xidmətləri: gələcəyə baxış” mövzusunda III beynəlxalq elmi-praktiki konfransda 25 ölkənin – Rusiya, Ukrayna, Almaniya, Fransa, Polşa, Rumıniya, Türkiyə, Sinqapur, Latviya, Litva, Qazaxıstan, Özbəkistan, İran və s. daxil olmaqla – dövlət və qeyri-dövlət təşkilatlarından 200-ə yaxın nümayəndə iştirak etmişdir.

**13-15 sentyabr** tarixlərində Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-leytenantı Aydın Əliyevin rəhbərlik etdiyi nümayəndə heyəti Ukrayna Respublikasında rəsmi səfərdə olmuşdur. Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin sədri Aydın Əliyevin rəhbərlik etdiyi nümayəndə heyəti ilə Ukrayna Dövlət Gömrük Xidmətinin sədri İqor Kaletnik arasında görüş keçirilmiş, daha sonra monitorinq mərkəzinə baş çəkilmiş, burada gömrük vergiləri ilə bağlı aparılan təhlillər, gömrük-sərhəd keçid məntəqələrində müşayiət və istifadə olunan analitik sistemlərlə yaxından tanış olunmuşdur. Sentyabrın 14-də nümayəndə heyəti Dnepropetrovsk şəhərinə gəlmişdir. İlk olaraq Ukrayna Gömrük Akademiyası və Ümumdünya Gömrük Təşkilatının bu şəhərdəki Regional Tədris Mərkəzi ilə tanış olunmuşdur. Bu ali təhsil ocağının rəhbərliyi ilə keçirilən görüşdə birgə əməkdaşlığın gələcək aspektləri, eləcə də mərkəzləşdirilmiş qaydada azərbaycanlı tələbələrin bu akademiyada pulsuz təhsil alması və s. məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır. Nümayəndə heyətimiz həmçinin, Ukrayna Gömrük Xidmətinin kinoloji xidmət itlərinin təlim prosesini izləmiş, gələcəkdə qarşılıqlı əməkdaşlıq barəsində müzakirələr aparılmışdır. Səfərin sonuncu günü Simferopol Beynəlxalq Hava Limanında gömrük işinin təşkili ilə tanış olunmuş, eləcə də Sevastopol və Krım Muxtar Respublikasının gömrük xidməti rəhbərləri ilə görüşlər keçirilmiş, Azərbaycanda gömrük sisteminin inkişafı, əldə olunan nailiyyətlər barədə ətraflı məlumat verilmiş, qarşılıqlı əməkdaşlıq məsələləri müzakirə edilmişdir.

**19-20 sentyabr** tarixlərində Bakı şəhərində Mərkəzi Asiya Regional İqtisadi Əməkdaşlıq (CAREC) proqramı Gömrük Əməkdaşlığı Gömrük 10-cu iclası keçirilmişdir. Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi və MARİƏ-nin birgə təşkil etdikləri tədbirdə Gömrük da daxil olmaqla, 10 ölkənin – Qazaxıstan, Türkmənistan, Özbəkistan, Qırğız, Tacikistan, Əfqanıstan, Pakistan, Monqolustan və Cinin gömrük xidməti əməkdaşları, eləcə də Asiya İnkişaf Bankı və digər aidiyyəti beynəlxalq təşkilatların mütəxəssisləri

iştirak etmişlər. İclasın açılış mərasimində Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-leytenantı Aydın Əliyev, Asiya İnkişaf Bankının Şərqi Asiya Departamentinin məsul əməkdaşı Ying Qian və Ümumdünya Gömrük Təşkilatının texniki attaşesi Takaşi Matsumoto iştirak etmişlər. İki gün davam edən iclas çərçivəsində 7 plenar sessiya keçirilmişdir. Tədbirdə Gömrük Əməkdaşlıq Gömrük prioritet sahələri, TRS-nin (Vaxt Sərfinin Araşdırılması) tətbiqinə dair görülmüş işlər, sərhəd xidmətlərinin regional təkmilləşdirilməsi barədə məruzələr dinlənilmiş, eləcə də ticarətin asanlaşdırılması üzrə ortamüddətli prioritet layihələr, enerji ticarətinə nəzarət məsələlərində əməkdaşlıq, MARİƏ Daşıyıcılar və Ekspeditorlar Assosiasiyaları, Gömrük Əməkdaşlığı Gömrük prioritet sahələrinə Gömrük Birliyinin mümkün təsiri barədə məruzələr dinlənilmiş və ətraflı müzakirələr aparılmışdır.

**18-23 sentyabr** tarixlərində Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi nümayəndə heyəti Çex Respublikasının paytaxtı Praqada səfərdə olmuşdur. Azərbaycan gömrükçüləri Praqada Gömrük Muzeyləri Beynəlxalq Assosiasiyasının 19-cu konfransında iştirak etmiş, Konfrans “Muzeylərimizdə təhlükəsizlik” mövzusuna həsr edilmişdir. Daha sonra iclasda GMBA araşdırma nəticələri müzakirə edilmişdir. İndiyədək bu araşdırmada iştirak etmiş 10 ölkənin əldə etdiyi nəticələr təqdim olunmuş və müzakirələr aparılmışdır. Araşdırmaya muzeyin adı və işi, ünvanı, tutumu, heyəti, kolleksiyaların növü, ziyarətçi statistikası, marketinq kimi məsələlər daxil edilmişdir. Sonda gömrük muzeylərinin idarə edilməsilə bağlı imkanlar, üstünlüklər, zəif cəhətlər və təhlükəni müəyyən edən təhlil aparılmışdır. Gömrük nümayəndə heyəti ilə keçirilən növbəti iclasda isə “Bir ilin hekayəsi” filmi təqdim edilmiş və konfrans iştirakçılarına Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi Gömrük Tarixi Muzeyinin filialı haqqında məlumat verilmişdir. Həmçinin “Gömrük muzeyinin xəzinəsi poçt markalarında” adlı marka toplusunun artıq hazır olduğu, DGK-nın Gömrük Tarixi Muzeyinin kolleksiyasına məxsus ən nadir sənət incilərinin bu markalarda əks olunduğu nəzərə çatdırılmışdır. Bundan başqa, DGK Gömrük Tarixi Muzeyinin filialının 2011-ci ildəki fəaliyyəti haqqında məlumatın GMBA-nın rəsmi internet saytında yerləşdirilməsi üçün material təqdim edilmişdir.

**19-23 sentyabr** tarixlərində Avstriya Respublikasının Vyana şəhərində Atom Enerjisi üzrə Beynəlxalq Agentliyin Baş Konfransının 55-ci sessiyası keçirilmişdir. Tədbirdə Gömrük nümayəndə heyətinin tərkibində Dövlət Gömrük Komitəsinin sədrinin müavini, gömrük xidməti general-leytenantı Əsgər Abdullayev də iştirak etmişdir. Baş Konfrans öz işinə seçkilərin keçirilməsi ilə başlamış və Konfransın sədri vəzifəsinə Rumıniya təmsilçisi seçilmişdir. Bununla yanaşı, müvafiq qaydalara əsasən Konfransın sədrinin səkkiz müavini və tam heyətli Komitənin sədri və əlavə nümayəndələr seçilmiş, eləcə də Agentliyin yeni üç üzvü (Dominikan, Laos, Tonqo) təsdiqlənmişdir. Sonra tədbirdə BMT Baş katibinin Konfrans iştirakçılarına müraciəti oxunmuşdur. Müraciətdə atom enerjisi sahəsində əməkdaşlıq və inkişaf məsələlərində BMT üzv ölkələrinin rolu qeyd edilmiş və bu məsələlərdə AEBA-nın fəaliyyət istiqamətləri, həyata keçirilən təşəbbüslərin vacibliyinə toxunulmuşdur.

**2-10 oktyabr** tarixlərində Koreya Respublikasının Seul şəhərində Asiya və Sakit Okean Regionunun Ticarətin Asanlaşdırılması üzrə 2011-ci il Forumu, BMT-nin Kağızsız Ticarət üzrə Ekspertlər Şəbəkəsinin Məşvərət Gömrük iclası və BMT-nin Kağızsız Ticarət üzrə Ekspertlər Şəbəkəsinin "Ticarətin Asanlaşdırılması üçün Məlumatların Harmonikləşdirilməsi" mövzusunda iclasları keçirilmişdir. Tədbirlərdə Dövlət Gömrük Komitəsi Statistika və İnformasiya Texnologiyaları Baş Gömrük rəisi İqbal Babayev iştirak etmişdir. Asiya və Sakit Okean Regionunun Ticarətin Asanlaşdırılması üzrə 2011-ci il Forumunun açılış mərasimində BMT-nin Asiya və Sakit Okean Regionu üzrə İqtisadi və Sosial Komissiyasının Ticarət və İnvestisiya bölməsinin direktoru Ravi Ratnayake, Koreya Respublikasının Bilik İqtisadiyyatı nazirinin müavini H.E.Jin-Hyun Han, Asiya İnkişaf Bankının Şərqi Asiya Departamentinin Regional əməkdaşlıq üzrə baş mütəxəssisi Ying Qian və Koreya Beynəlxalq Ticarət Assosiasiyasının direktoru Ki Sung Lee giriş sözü ilə çıxış etmişlər. Daha sonra sərhəd keçid məntəqələrində ticarətin asanlaşdırılması, beynəlxalq təchizat zəncirinin əhəmiyyəti, "bir pəncərə" prinsipinin yeni mərhələləri, real tərəqqiyə nail olmaq və səmərəliliyin qiymətləndirilməsivə s. digər məsələlər üzrə məruzələr dinlənilmişdir.

**12 oktyabr** tarixində Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-leytenantı Aydın Əliyev Avstriya Federal Maliyyə Nazirliyinin Dövlət katibi Andreas Şiederlə görüşmüşdür. Yaxın günlərdə açılışı gerçəkləşəcək Ümumdünya Gömrük Təşkilatının Potensialın Gücləndirilməsi üzrə Regional Ofisində baş tutan görüşdə iki ölkə arasında mövcud əlaqələrdən məmnunluqla söhbət açılmış, Azərbaycanla Avstriya arasında istər siyasi, iqtisadi, istərsə də mədəni əlaqələrin hazırkı vəziyyəti xarakterizə edilmiş, Avstriya Prezidenti Haynts Fişerin respublikamıza səfərinin ölkələrimiz arasında əlaqələrin inkişafında yeni impuls olduğu vurğulanmışdır. Müstəqil Azərbaycanın Gömrük Xidmətinin keçdiyi inkişaf yoluna qısaca nəzər salan Komitə sədri istər büdcə gəlirlərinin formalaşmasında, istərsə də iqtisadi təhlükəsizliyin təmin edilməsində gömrük orqanlarının rolundan danışmış, xüsusilə, qanunvericilik bazasının möhkəmləndirilməsi, maddi-texniki bazanın gücləndirilməsi istiqamətində həyata keçirilən tədbirlərdən bəhs etmişdir. Səmimi qarşılanmaya və göstərilən yüksək qonaqpərvərliyə görə Dövlət Gömrük Komitəsinin sədri Aydın Əliyevə təşəkkür edən Avstriya Federal Maliyyə Nazirliyinin Dövlət katibi Andreas Şieder respublikamızda olmaqdan məmnunluğunu ifadə etmiş, həqiqətən Azərbaycanda uğurlu inkişaf yolu keçən iqtisadi tərəqqinin şahidi olduğunu bildirmişdir.

**12-14 oktyabr** tarixlərində Ukrayna Dövlət Gömrük Xidmətinin sədri İqor Kaletnikin rəhbərlik etdiyi nümayəndə heyəti Azərbaycanda səfərdə olmuşdur. Səfər zamanı Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi rəhbərliyi ilə görüş keçirilmişdir. Görüşdə Gömrük-Ukrayna əlaqələrinin perspektivi haqqında danışılmış, Azərbaycanla Ukrayna arasında əlaqələrin müxtəlif sahələrdə, o cümlədən, gömrük işi sahəsində genişləndirilməsi üçün böyük potensialın olduğu və bu imkandan maksimum yararlanmağın vacibliyi vurğulanmışdır. İki ölkənin gömrük xidmətləri arasında əlaqələrə toxunularaq, bu ilin sentyabrında Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi nümayəndə heyətinin Ukrayna Respublikasına səfəri xatırladılmış, bu səfərin sözügedən ölkənin Gömrük Xidmətinin fəaliyyətilə yaxından tanışlıq və əməkdaşlıq imkanlarını nəzərdən keçirmək üçün çox faydalı olduğu bildirilmişdir. Daha sonra

nümayəndə heyəti Azərbaycan Gömrük Xidmətinin nail olduğu yeniliklərlə tanış olmuşlar.

**17-18 oktyabr** tarixlərində Bakı şəhərində Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Beynəlxalq Konfrans keçirilmişdir. Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi və Ümumdünya Gömrük Təşkilatının birgə təşkilatçılığı, BMT-nin dəstəyi ilə keçirilən tədbirdə 42 ölkədən 80-dən çox nümayəndə, eləcə də BMT, Avropa Komissiyası, Mərkəzi Asiya Regional İnformasiya və Əlaqələndirmə Mərkəzi (CARICC), İnterpol, Cənub-Şərqi Avropa üzrə Əməkdaşlıq Təşəbbüsü Mərkəzi (SECI) və digər aidiyyəti beynəlxalq və regional təşkilatların mütəxəssisləri iştirak etmişlər. Konfransın açılış mərasimində Azərbaycan Respublikası Baş nazirinin müavini, Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının sədri Əli Həsənov, Azərbaycan Respublikası Prezidentinin Administrasiyası Hüquq-mühafizə orqanları ilə iş şöbəsinin müdiri Fuad Ələsgərov, Ümumdünya Gömrük Təşkilatının Baş katibi Kunio Mikuriya, BMT-nin Narkotiklər və Cinayətkarlıq üzrə Gömrük icraçı direktoru Yuri Fedotov çıxış etmişlər. Konfrans çərçivəsində “Azərbaycan Respublikası Hökuməti və Makedoniya Respublikası Hökuməti arasında gömrük işi sahəsində əməkdaşlıq və qarşılıqlı yardım haqqında Saziş”in imzalanmışdır.

**17 oktyabr** tarixində Bakı şəhərində Ümumdünya Gömrük Təşkilatının Potensialın Gücləndirilməsi üzrə Avropa Regional Ofisinin açılış mərasimi keçirilmişdir. Tədbirə həmin gün Bakıda işə başlayan Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Beynəlxalq Konfransın nümayəndələri qatılmışlar. Binanın açılışını bildirən rəmzi qırmızı lenti Dövlət Gömrük Komitəsinin sədri Aydın Əliyev və Ümumdünya Gömrük Təşkilatının Baş katibi Kunio Mikuriya kəsmişlər. Öncə mərasim iştirakçıları Bakının Xətai rayonunda inşa edilmiş 4 mərtəbəli həmin ofisin şəraiti və imkanları ilə yaxından tanış olmuş, maddi-texniki təchizatından razılıqlarını bildirmişlər. Sonra açılış mərasimində Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin sədri Aydın Əliyev bildirmişdir ki, Bakı şəhərində ÜGT-nin Potensialın Gücləndirilməsi üzrə Avropa Regional Ofisinin yaradılması ideyası 4 il əvvəl meydana çıxmışdır. Bu məsələ uzun müddət davam edən danışıqlar nəticəsində razılaşdırılmış və nəhayət, Bakıda yaranması qərara alınan ofisin tikintisi gerçəkləşdirilmişdir. Komitə sədri ÜGT-nin Potensialın Gücləndirilməsi üzrə Avropa Regional Ofisinin Bakıda yaradılmasına dəstək verən hər bir iştirakçı tərəfə minnətdarlığını bildirmiş, ofisin Avropa regionundakı gömrük xidmətlərinin modernləşdirilməsi işinə uğurla xidmət göstərəcəyinə əminliyini ifadə etmişdir. Daha sonra DGK sözügedən ofisin Bakıda yaradılmasında fəal iştirakına və gömrük əməkdaşlığının inkişaf etdirilməsində xidmətlərinə görə ÜGT-nin Baş katibi Kunio Mikuriyaya, İsveç Gömrük Xidmətinin departament rəhbəri Lars Karlssona, İrlandiya Gömrük Xidmətinin rəhbəri xanım Josephine Feehilyə və Lüksemburq Gömrük Xidmətinin Baş direktoru Alain Bellota Azərbaycan Gömrük Xidmətinin döş nişanlarını təqdim etmişdir.

**19-21 oktyabr** tarixlərində Polşa Respublikasının Krakov şəhərində Gömrük 2013 Şərq Qonşuluğu Gömrük Əməkdaşlığı “Daha yaxşı əməkdaşlığa doğru” adlı Beynəlxalq Konfrans keçirilmişdir. Konfransda Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-leytenantı Aydın Əliyevin rəhbərliyi ilə

nümayəndə heyəti iştirak etmişdir. 36 ölkənin gömrük xidmətlərinin, Ümumdünya Gömrük Təşkilatının, Avropa Komissiyasının və Avropa İttifaqı Sərhədə Yardım Missiyasının 95 nümayəndəsinin qatıldığı konfransın oktyabrın 19-da başlayan hazırlıq iclasında işçi görüşün rəhbərləri və reportyorları, eləcə də gündəlik təsdiq olunmuş, oktyabrın 20-də isə konfrans öz işinə başlamışdır. Açılış mərasimində Polşa Respublikası Gömrük Xidmətinin Baş direktoru Yaçek Kapiça, Krakov şəhərinin meri Yaçek Mayxrovskiy, Macarstan Maliyyə Nazirliyinin gömrük və maliyyə qvardiyası üzrə vitse-prezidenti Mixali Arnold çıxış etmişlər. Konfransda müzakirə olunan məsələlər, səsləndirilən təkliflər ümumilikdə iştirakçıların diqqətinə çatdırılmış, yekun olaraq nəticələr barədə sənəd layihəsi təqdim edilmişdir. Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin sədri Aydın Əliyev konfrans çərçivəsində Litva, Macarstan, Polşa gömrük xidməti rəhbərləri, Avstriya gömrük xidmətinin nümayəndələri, Portuqaliya Gömrük Xidmətinin rəhbərliyi ilə ikitərəfli görüşlər keçirmişdir.

**26-28 oktyabr** tarixlərində Gürcüstan Respublikasının Batumi şəhərində İpək Yolu ölkələri arasında ticarətə yardım və onun asanlaşdırılması üzrə gömrük idarələrinin roluna dair IV Beynəlxalq Forum keçirilmişdir. Tədbirdə Gömrük, Gürcüstan, Koreya Respublikası, Pakistan, Hindistan, Türkiyə, Ukrayna, Moldova, Latviya, İtaliya, İsveç, Polşa, Serbiya, Özbəkistan və Ermənistan gömrük xidmətlərinin məsul şəxsləri, həmçinin bir sıra beynəlxalq təşkilatların nümayəndələri iştirak etmişlər. Forumda Azərbaycan Respublikasını Dövlət Gömrük Komitəsinin sədrinin müavini, gömrük xidməti general-leytenantı Əsgər Abdullayev təmsil etmişdir. Tədbiri Gürcüstanın maliyyə naziri Dmitri Qvintadze açmış və açılış mərasimində Acarıstan Muxtar Respublikası hökumətinin rəhbəri Levon Varşalomidze, Türkiyənin gömrük və ticarət naziri Hayati Yazıcı və Polşa Gömrük Xidmətinin Baş direktoru Jacek Kapica çıxış etmişlər. Çıxışlarda İpək Yolu üzərində yerləşən ölkələr arasında ticarətin asanlaşdırılması və əlaqələrin genişləndirilməsi istiqamətində müzakirələrin davam etdirilməsinin zəruriliyi qeyd edilmiş, İpək Yolunun Şərqlə Qərb arasında ticarətin tarixi marşrutu kimi ölkələrin iqtisadi, mədəni həyatına müsbət təsirindən və əhəmiyyətindən bəhs olunmuşdur. Forumun "Ticarətin asanlaşdırılmasına doğru Gürcüstan yolu" mövzusunda keçirilən sessiyasında isə Gürcüstanın İqtisadi və Davamlı İnkişaf, Enerji və Təbii Resurslar, Regional İnkişaf və İnfrastruktur, Ədliyyə nazirlikləri və Gömrük Xidmətinin nümayəndələri çıxış edərək Gürcüstanın iqtisadi həyatı, görülmüş işlər və nəticələr, regional və qlobal ticarətin, investisiyanın asanlaşdırılması barədə fikirlərini diqqətə çatdırmışlar. Forum zamanı Türkiyə və Gürcüstan arasında "Sərnişinlərin, nəqliyyat vasitələrinin və malların beynəlxalq hərəkəti ilə bağlı elektron məlumatların mübadiləsinə dair məsələlərlə bağlı Protokol" da imzalanmışdır.

**27 oktyabr** tarixində Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-leytenantı Aydın Əliyev Koreya Respublikası Gömrük Xidməti nəzdində UNİ-PASS Beynəlxalq Assosiasiyasının prezidenti Kim Çonq Honun rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir. DGK sədri Aydın Əliyev müstəqil Azərbaycanın gömrük xidmətinin keçdiyi inkişaf yolundan söhbət açmış və bildirmişdir ki, gələn ilin yanvarında yaradılmasının 20 illiyini qeyd edəcək Dövlət Gömrük Komitəsi ötən müddət ərzində bir çox sahələrdə, eləcə də informasiya-kommunikasiya texnologiyalarının tətbiqində bir sıra nailiyyətlər əldə etmişdir. Dövlət Gömrük

Komitəsində İKT-nin tətbiqinə 1999-cu ildən başlanıldığını nəzərə çatdıran A.Əliyev qeyd etmişdir ki, həmin ilin yanvarından etibarən DGK ilə BMT-nin İnkişaf Proqramı arasında "Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi potensialının gücləndirilməsi və məlumatların ötürülməsi şəbəkəsinin yaradılması" layihəsi uğurla həyata keçirilmişdir. Azərbaycan Gömrük Xidməti ölkədə "e-hökumət" proqramının icrasına da öz töhfəsini əsirgəmir. Belə ki, hazırda həyata keçirilən "e-gömrük" layihəsi bütünlükdə "Elektron Gömrük" dövlət proqramının tərkib hissəsi olub, bu yeni mexanizm ticarətə yardım və təhlükəsizliyin təmin olunması prinsiplərini həyata keçirməklə, əvvəlcədən məlumatlandırmaya və elektron bəyanetməyə əsaslanır. Səmimi qəbula və qonaqpərvərliyə görə Dövlət Gömrük Komitəsinin sədrinə təşəkkür edən Koreya Respublikası Gömrük Xidməti nəzdində UNİ-PASS Beynəlxalq Assosiasiyasının prezidenti Kim Çonq Hon Gömrük-Koreya münasibətlərinin bir çox sahələrdə, o cümlədən, gömrük xidmətində uğurla inkişaf etməsindən məmnunluğunu bildirmişdir. İnformasiya-kommunikasiya texnologiyalarının tətbiqi sahəsində Koreya Respublikasının, eləcə də bu ölkənin gömrük xidmətinin qabaqcıl təcrübəsinə toxunan qonaq bu sahədə Azərbaycanla əməkdaşlığa təmsil etdiyi qurumun da öz töhfəsini verməyə hazır olduğunu diqqətə çatdırmışdır.

**1 noyabr** tarixində Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-leytenantı Aydın Əliyev Norveçin Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Erlinq Şönsberqin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir. Qonaqları səmimiyyətlə salamlayan Dövlət Gömrük Komitəsinin sədri Gömrük ilə Norveç arasında mövcud iqtisadi, siyasi, mədəni əlaqələrdən söhbət açmış, bu əlaqələrin bundan sonra daha da genişlənəcəyinə əminliyini ifadə etmişdir. "Bir müddət bundan öncə tanınmış norveçli səyyah, etnoqraf, alim-antropoloq Tur Heyerdalın ailə üzvlərinin Gömrük səfəri onu deməyə əsas verir ki, Gömrük-Norveç əlaqələri təkcə iqtisadi sferanı deyil, mədəni, tarixi köklərə əsaslanan münasibətləri də əhatə edir" – deyə sözünə davam edən Komitə sədri onu da vurğulamışdır ki, ölkələr arasında əməkdaşlığın, o cümlədən, iqtisadi-ticari münasibətlərin inkişaf etdirilməsində gömrük xidmətinin də öz yeri var və gömrük sistemi bu sahədə körpü rolunu oynayır. Müstəqil Azərbaycanın Gömrük Xidmətinin keçdiyi inkişaf yoluna diqqəti çəkən Komitə sədri istər büdcə gəlirlərinin formalaşmasında, istərsə də iqtisadi təhlükəsizliyin təmin edilməsində gömrük orqanlarının rolundan danışmış, informasiya texnologiyalarının tətbiqi, maddi-texniki təchizatın gücləndirilməsi, qanunvericilik bazasının möhkəmləndirilməsi istiqamətində həyata keçirilən tədbirlərdən, xüsusilə yenicə qəbul olunmuş və gələn ilin əvvəlindən qüvvəyə minəcək yeni Gömrük Məcəlləsindən bəhs etmişdir. Səmimi qəbula görə təşəkkürünü bildirən Norveçin Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Erlinq Şönsberq respublikamızda diplomatik fəaliyyət göstərməyindən məmnunluğunu ifadə etmiş, təmsil etdiyi hökumətin Azərbaycanla bütün sahələrdə əməkdaşlığa çox böyük önəm verdiyini vurğulamışdır.

**1 noyabr** tarixində Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-leytenantı Aydın Əliyev Koreya Beynəlxalq Əməkdaşlıq Agentliyinin (KOICA) rezident nümayəndəsi xanım Eun Suk Kimi qəbul etmişdir. Görüşdə iki ölkə arasında mövcud əlaqələrdən məmnunluqla söhbət açan DGK sədri Gömrük-Koreya münasibətlərinin bir çox sahələrdə, o cümlədən, gömrük xidmətində uğurla inkişaf

etdiyini vurğulamışdır. Komitə sədri bu əlaqələrin hazırkı vəziyyətinə toxunmuş, eləcə də Gömrük və Koreya gömrük xidmətləri arasında əməkdaşlığın dərinləşdirilməsi üçün qarşılıqlı fəaliyyətin, təcrübə mübadiləsinin əhəmiyyətini önə çəkmişdir. Koreya Beynəlxalq Əməkdaşlıq Agentliyinin rezident nümayəndəsi xanım Eun Suk Kim Gömrük-Koreya münasibətlərinin bir çox sahələrdə, o cümlədən, gömrük xidmətində uğurla inkişaf etməsindən məmnunluğunu bildirmiş və ölkələr arasında əməkdaşlığın, o cümlədən, iqtisadi-ticari münasibətlərin inkişaf etdirilməsində gömrük xidmətlərinin xüsusi yeri olduğunu vurğulamışdır.

**10 noyabr** tarixində Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-leytenantı Aydın Əliyev Macarıstan Maliyyə Nazirliyinin gömrük və maliyyə qvardiyası üzrə vitse-prezidenti Mixali Arnoldu qəbul etmişdir. Qonağı səmimiyyətlə salamlayan Dövlət Gömrük Komitəsinin sədri Aydın Əliyev Azərbaycanla Macarstan arasında təşəkkül tapmış qarşılıqlı, faydalı əməkdaşlıq münasibətlərinin səviyyəsindən məmnunluğunu ifadə etmiş, Macarıstan Prezidenti Pal Şmittin Gömrük ilk rəsmi səfərindən sonra bu əlaqələrin daha da intensivləşəcəyinə ümidvar olduğunu bildirmişdir. Bir müddət bundan öncə Polşa Respublikasının Krakov şəhərində beynəlxalq konfrans çərçivəsində keçirdikləri ikitərəfli görüşü məmnunluqla xatırlayan DGK sədri Aydın Əliyev iki ölkə arasında bütün sahələrdə əməkdaşlıqdan razılıqla söhbət açmış, xüsusilə bu əlaqələrin genişlənməsində gömrük orqanlarının da üzərinə mühüm vəzifələrin düşdüyünü bildirmiş, hər iki ölkənin gömrük xidmətlərinin qarşılıqlı münasibətlərini yüksək qiymətləndirmiş, gələcək perspektivlərdən bəhs etmiş, əməkdaşlığın dərinləşdirilməsi üçün qarşılıqlı fəaliyyətin, təcrübə mübadiləsinin əhəmiyyətini önə çəkmişdir. Səmimi qəbula görə təşəkkürünü bildirən Macarıstan Maliyyə Nazirliyinin gömrük və maliyyə qvardiyası üzrə vitse-prezidenti Mixali Arnold Gömrük səfərindən məmnunluğunu ifadə etmiş, ölkəmizdə sürətli iqtisadi inkişaf tempindən xeyli razı qaldığını bildirmişdir. Ölkələrimiz arasında iqtisadi, siyasi, mədəni əlaqələrin hazırkı durumunu yüksək qiymətləndirən qonaq ölkəsinin Azərbaycanla bütün sahələrdə əməkdaşlığa xüsusi önəm verdiyini diqqətə çatdırmışdır.

**14 noyabr** tarixində Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-leytenantı Aydın Əliyev Bakıda keçirilən Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi üçün strateji planlaşdırmaya dair seminarda iştirak edən Ümumdünya Gömrük Təşkilatının ekspertləri- xanım Bistra Teodosievanı və Aleksey Şeqlovu qəbul etmişdir. Dövlət Gömrük Komitəsinin sədri respublikamızın paytaxtında keçirilən Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi üçün strateji planlaşdırmaya dair seminarın işinə müvəffəqiyyətlər arzulamış, Ümumdünya Gömrük Təşkilatının ekspertlərinin bu seminarda iştirakını yüksək qiymətləndirmişdir. Müstəqil Azərbaycanın gömrük sisteminin beynəlxalq təşkilatlarla, xüsusilə Ümumdünya Gömrük Təşkilatı ilə qarşılıqlı əlaqələrinə də toxunan DGK sədri əməkdaşlığın hazırki vəziyyətindən razılıqla söhbət açmışdır. Artıq ÜGT-nin bir sıra beynəlxalq tədbirlərinə Azərbaycanın ev sahibliyi etdiyini, eləcə də ÜGT potensialın gücləndirilməsi üzrə Avropa regional ofisinin Azərbaycanda fəaliyyətə başladığını məmnunluqla diqqətə çatdıran Komitə sədri gələcəkdə də bu cür tədbirlərin respublikamızda keçiriləcəyinə ümidvar olduğunu bildirmiş, qarşılıqlı əməkdaşlığın gələcək perspektivlərindən bəhs etmişdir. Səmimi qəbula və göstərilən yüksək qonaqpərvərliyə görə Dövlət Gömrük Komitəsinin sədri

Aydın Əliyevə təşəkkür edən Ümumdünya Gömrük Təşkilatının ekspertləri respublikamızda olmaqdan məmnunluqlarını ifadə etmiş, həqiqətən Azərbaycanın sürətli inkişaf tempi ilə irəlilədiyini vurğulamış, əsl iqtisadi tərəqqinin şahidi olduqlarını bildirmişlər.

**14-16 noyabr** tarixlərində Ümumdünya Gömrük Təşkilatının Bakı şəhərindəki Potensialın Gücləndirilməsi üzrə Regional Ofisində Potensialın Gücləndirilməsi üzrə Avropa Regional Ofisi və Regional Tədris Mərkəzlərinin 4-cü iclası keçirilmişdir. Tədbirə Gömrük, Macarıstan, Rusiya, Ukrayna və Qazaxıstan nümayəndələri, eləcə də Ümumdünya Gömrük Təşkilatının mütəxəssisləri qatılmışdır. İclasın açılış mərasimində ÜGT-nin Bakı şəhərindəki Potensialın Gücləndirilməsi üzrə Regional Ofisinin rəhbəri Vitali Mikeladze və Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi Gömrük Nəzarətinin Təşkili Baş Gömrük rəisi Şahin Bağırov çıxış edərək bildirmişlər ki, Regional Ofisdə ilk tədbir olan bu iclasın məqsədi regionda potensialın gücləndirilməsi sahəsində qarşıda duran vəzifələri nəzərdən keçirmək, eləcə də ofisin maddi-texniki və təşkilati məsələlərini müzakirə etməkdir. Qeyd edilmişdir ki, iclasda bu barədə geniş məlumat veriləcək, hər bir iştirakçı tərəfin fikir və təklifləri öyrəniləcək. İclasda iştirak edən regional tədris mərkəzlərinin nümayəndələri potensialın gücləndirilməsi üzrə əldə etdikləri nailiyyətlər barədə hesabatlarla çıxış etmişlər. Tədbirin davam etdiyi sonrakı günlərdə isə ofisin internet səhifəsi və tədris portalının hazırlanması, eləcə də ofis üçün mövcud potensialın gücləndirilməsi prioritetlərinin müəyyənləşdirilməsinə dair müzakirələr aparılmışdır. Bu müzakirələrə istiqamət vermək məqsədilə iclasda ÜGT-nin mütəxəssisləri də iştirak edirdilər.

**21-23 noyabr** tarixlərində Türkiyə Respublikasının Ankara şəhərində “Ticarətin asanlaşdırılması sahəsində sərhədyanı əməkdaşlıq və gömrük xidmətlərinin rolu” mövzusunda regional konfrans keçirilmişdir. Beynəlxalq İslam Ticarət və Maliyyə Korporasiyası, Türkiyə Odalar və Borsalar Birliyi və Türkiyə Ticarət və Gömrük Nazirliyinin birgə təşkil etdikləri tədbirə ÜGT, BMT-nin Avropa İqtisadi Komissiyası (UNECE), BMT-nin Asiya və Sakit Okean Regionu üzrə Komissiyası (UNESCAP), İqtisadi Əməkdaşlıq Təşkilatı (ECO), o cümlədən, İslam Əməkdaşlıq Təşkilatına üzv dövlətlərin nümayəndələri qatılmışdır. Regional konfransda Azərbaycan Respublikasını Dövlət Gömrük Komitəsi Statistika və İnformasiya Texnologiyaları Baş Gömrük rəisi İqbal Babayevin rəhbərlik etdiyi nümayəndə heyəti təmsil etmişdir. Konfransın açılış mərasimində Türkiyə Respublikasında Avropa Birliyi Ticarət Palatası, İslam İnkişaf Bankı və Türkiyə Ticarət və Gömrük Nazirliyinin nümayəndələri nitq söyləmişlər. Sonra tədbir öz işini ticarət və nəqliyyatın asanlaşdırılması və “bir pəncərə” prinsipinin tətbiqi sahəsində mövcud beynəlxalq təcrübə və standartlarla bağlı – BMT-nin Avropa İqtisadi Komissiyasının (UNECE) ticarət və nəqliyyatın asanlaşdırılması sahəsində tövsiyələri; BMT-nin Asiya və Sakit Okean Regionu üzrə İqtisadi və Sosial Komissiyasının (UNESCAP) ticarət və biznes prosesinin təhlili üzrə təlimatı; ÜGT-nin gömrük prosedurlarının sadələşdirilməsi və harmonizasiyası sahəsində tövsiyələri və Kioto Konvensiyası; ÜGT-nin məlumat modeli və “bir pəncərə” mövzusunda təqdimatlarla davam etdirmişdir. Konfransın sonunda bir sıra məsələlərin – regionda ticarət və nəqliyyatın asanlaşdırılması sahəsində ümumi strategiya və tədbirlərin formalaşdırılması; bu sahədə birgə proqram və layihələrin hazırlanması üzrə milli,

regional və beynəlxalq miqyasda daha səmərəli əməkdaşlığa nail olunması; Ticarət və Nəqliyyatın Sadələşdirilməsi üzrə Milli Komitələrin yaradılması, onların rolu, funksiyaları və strukturunun müəyyənləşdirilməsi; ticarətin asanlaşdırılması, sərhəd idarəçiliyi və ümumilikdə, gömrük xidmətlərinin modernizasiyasında informasiya-kommunikasiya texnologiyalarının geniş tətbiqi; ticarət və nəqliyyatın asanlaşdırılması sahəsində regional və beynəlxalq təşkilatların fəaliyyətinin koordinasiyası; inteqrə edilmiş sərhəd idarəçiliyi təcrübəsinin öyrənilməsi və "bir pəncərə" prinsipinin daha geniş tətbiqi; ÜGT-nin məlumatların harmonizasiyası və unifikasiyası sahəsində Məlumat Modelinin, həmçinin BMT-nin Avropa İqtisadi Komissiyasının ticarətin sadələşdirilməsi üzrə hazırladığı standartların daha geniş miqyasda tətbiqi; "İpək Yolu" təşəbbüslərinə qoşulma və onun İslam Əməkdaşlığı Təşkilatına üzv dövlətlər üçün əhəmiyyətinin önəmi vurğulanmış və müvafiq təkliflər səsləndirilmişdir.

**23-24 noyabr** tarixlərində Rumıniya Respublikasının paytaxtı Buxarest şəhərində TRASEKA Hökumətlərarası Komissiyasının 9-cu illik iclası, TRASEKA-nın Layihələrin Koordinasiyası üzrə iclası və Daimi Katibliyin Hökumətlərarası hazırlıq sessiyası keçirilmişdir. Tədbirdə Azərbaycan Respublikasının nümayəndə heyəti də iştirak etmişdir. Toplantının açılış mərasimində TRASEKA-nın Baş katibi Eduard Biryukov, Avropa İqtisadi Komissiyasının nümayəndəsi Filip Mikos və TRASEKA Hökumətlərarası Komissiyasında Rumıniyanın Milli katibi Yonuç Aurelian Lakusta iştirak etmişlər. İclasda bu qurumda yerinə yetirilən Avropa Komissiyasının layihələrinin icrası, "AB və qonşu ölkələr və Mərkəzi Asiya ölkələri arasında nəqliyyat dialoqu və qarşılıqlı əlaqə - TRASEKA-nın alətlər paketi" (İDEA) layihəsi üzrə Nəqliyyat modelləri və TRASEKA-da nəqliyyatın proqnozlaşdırılması, "Qara və Xəzər dənizləri hövzələrində gəmilər tərəfindən çirklənmənin qarşısının alınması və təhlükəsizlik sahəsində əməkdaşlığın inkişafı və təhlükəsizlik üzrə ümumi idarəetmə sisteminin inkişaf etdirilməsi" (SASEPOL) layihəsi, TRASEKA-nın regional "Logistik proseslər və dəniz magistralı II" (LOGMOS) layihəsi barədə çıxışlar olmuşdur. Növbəti gün TRASEKA Hökumətlərarası Komissiyasının 9-cu illik iclası keçirilmiş və toplantı iştirakçılarını Rumıniya hökuməti adından nəqliyyat naziri xanım Anka Daniela Boagiu və Avropa İqtisadi Komissiyası adından Filip Mikos salamlamışlar. Sonra TRASEKA Hökumətlərarası Komissiyasında sədrliyi ilə əlaqədar Moldova Respublikası təmsilçisinin, eləcə də TRASEKA Hökumətlərarası Komissiyasının səkkizinci və doqquzuncu iclasları arasındakı müddətdə TRASEKA Hökumətlərarası Komissiyası Daimi katibliyinin fəaliyyəti barədə TRASEKA Baş katibinin hesabatları dinlənilmişdir.

**8-9 dekabr** tarixlərində Qazaxıstan Respublikasının paytaxtı Astana şəhərində MDB iştirakçı dövlətlərin Gömrük Xidməti Rəhbərləri Şurasının iclası keçirilmişdir. İclasa Rusiya, Ukrayna, Belarus, Moldova, Ermənistan, Qazaxıstan, Özbəkistan, Qırğız və Tacikistan gömrük orqanlarının nümayəndələri qatılmışdır. Tədbirdə Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi Xarici Əlaqələr Gömrük rəisi Dilavər Fərzəliyev iştirak etmişdir. MDB iştirakçı dövlətlərin Gömrük Xidməti Rəhbərləri Şurasının iclasından öncə, dekabrın 8-də bu qurumun ekspertlərinin görüşü keçirilmiş və onlar iclasda baxılacaq məsələləri müzakirə etmişlər. Növbəti gün isə Gömrük Xidməti Rəhbərləri Şurasının iclası öz işinə başlamışdır. Belarus Respublikası Dövlət Gömrük

Komitəsi nümayəndəsi gömrük işi sahəsində MDB iştirakçı dövlətlərin beynəlxalq hüquqi bazasının inventarlaşdırılması barədə çıxış etmişdir. Daha sonra 2015-ci ilədək olan müddətdə Rusiya Gömrük Akademiyasının bazası əsasında MDB iştirakçı dövlətlərin gömrük xidmətləri üçün kadrların ixtisasyönlü hazırlanması Konsepsiyasının işlənməsi barədə Rusiya gömrük xidmətinin nümayəndəsi məlumat vermiş və Konsepsiyanın həyata keçirilməsi üzrə Tədbirlər Planı və Məşvərət Qrupunun tərkibi təsdiq edilmişdir. İclas zamanı müzakirə edilmiş məsələlərdən olan MDB iştirakçı dövlətlərin xarici ticarətinin gömrük statistikasının vahid metodologiyasının redaksiyasına dəyişiklik edilməsi üzrə İşçi Qrupun rəhbərinin məlumatı da nəzərə alınmış, Ukrayna Dövlət Gömrük Xidmətinə vahid metodologiyanın yeni redaksiyasının layihəsini 1 fevral 2012-ci ilədək hazırlayıb MDB iştirakçı dövlətlərin gömrük xidmətlərinə göndərməsi, MDB iştirakçı dövlətlərin gömrük xidmətlərinə isə 1 mart 2012-ci ilədək həmin sənədin layihəsinə dair rəy və təklifləri Ukrayna Dövlət Gömrük Xidmətinə göndərmələri tapşırılmışdır. Bununla yanaşı, MDB iştirakçı dövlətlərin Gömrük Xidməti Rəhbərləri Şurasının 55-ci iclasına materialların qabaqcadan hazırlanması üçün ekspertlərin iclasının 2012-ci ilin martında Moskva şəhərində, rəhbərlərin iclasının isə 2012-ci ilin iyununda Qırğız Respublikasında keçirilməsi qərara alınmışdır. Sonda Gömrük Xidməti Rəhbərləri Şurasının fəaliyyətində aktiv iştirakına və MDB-nin yaradılmasının 20-ci ildönümü münasibətilə MDB iştirakçı dövlətlərin gömrük xidmətlərinin vəzifəli şəxsləri döş nişanları ilə təltif edilmişlər.

**12-15 dekabr** tarixlərində Cenevrə şəhərində "Beynəlxalq ticarətin əlaqələndirilməsi: növbəti dekadada "bir pəncərə" sistemləri və təchizat zənciri" mövzusunda Qlobal Ticarətin Asanlaşdırılması üzrə Konfrans, həmçinin kağızsız ticarət və "bir pəncərə" sisteminin tətbiqinin siyasi, hüquqi və idarəetmə aspektləri üzrə iclas keçirilmişdir. Hər iki tədbirdə Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi Statistika və İnformasiya Texnologiyaları Baş İdarəsinin rəisi İqbal Babayev iştirak etmişdir. BMT-nin beş regional komissiyası (UNECA, UNECE, UNECLAC, UNESCAP, UNESCWA) tərəfindən təşkil olunan tədbirdə məqsəd "bir pəncərə" sistemləri və qlobal təchizat zəncirində məlumat mübadiləsi sahəsində ümumi inkişaf perspektivlərini müəyyənləşdirmək və birgə metodika hazırlamaq olmuşdur. Burada bir sıra dövlətlərin, beynəlxalq təşkilatların, donor təşkilatlarının, ticarət birlikləri və müxtəlif biznes qurumlarının nümayəndələri iştirak etmişlər.